UOT 930:314

# BORÇALIDA AZƏRBAYCANLI ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

**L.İ.NƏSİBLİ**
***AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu***
***nasiblilogman@mail.ru***

*Məqalədə Borçalı tarixinin orta əsrlər dövründən qısa məlumat verilir, regionun XIX-XX əsr tarixinə toxunulur və əhalinin sosial-iqtisadi vəziyyətindən bəhs edilir.*

**Açar sözlər:** Borçalı, siyasət, mədəniyyət, general-qubernator, siyahıyaalma

Olduqca mühüm strateji əhəmiyyətə malik olduğundan Borçalı əsrlər boyu yadellilərin, yaxın və uzaq ölkələrin saysız-hesabsız yürüşlərinə, hücum və dağıntılarına məruz qalmışdır. Tarixi mənbələrin şahidlik etdiyi kimi, cəsur borçalılar heç zaman düşmənə boyun əyməmiş, əksinə müharibələr, yanğınlar, talanlar içərisində min illər boyu yaratdıqları və formalaşdırdıqları maddi mədəniyyət abidələrini, zəngin folklor nümunələrini, el adətlərini yaşada və indiki nəsillərə ötürə bilmişlər.

Təəssüf ki, Borçalı və borçalıların tarixi indiyədək ətraflı şəkildə öyrənilməmişdir. Halbuki istər Azərbaycan, istərsə də türk, rus, fars, gürcü, erməni mənbələrində Borçalıya dair yüzlərlə qiymətli fakt mövcuddur. Yeri gəlmişkən, qeyd edilməlidir ki, qonşu xalqların çağdaş tarixçılərinin əsərlərində, eləcə də ayrı-ayrı yazılarda Borçalının tarixi təhrif edilmiş, faktlar və hadisələr tendensiyalı şəkildə, onu qələmə alanların özlərinin milli maraqları baxımından yozulmuşdur.

Borçalı tarix boyu türk mədəniyyəti və türk əxlaqının beşiyi olmuşdur. Buraya on doqquzuncu yüzillikdən etibarən kütləvi şəkildə ermənilər, almanlar yunanlar və malakanlar köçürülmüşlər. Maraqlıdır ki, az bir müddət içərisində borçalılar həmin xalqların həyatında müstəsna dərəcədə mütərəqqi rol oynamış, onların məskunlaşması və mənəvi mədəniyyətinin formalaşmasına öz töhvələrini vermişlər. Azərbaycan dili isə regionda ümumanlaşma və əsas ünsiyyət vasitəsi olmuşdur. Adı çəkilən xalqların adət-ənənələrində, ağız ədəbiyyatının formalaşmasında, leksikonunda Azərbaycan mədəniyyəti və dilinin təsiri bu gün də açıq-aydın görünməkdədir. Təsadüfi deyildir ki, XIX əsrdən etibarən onlarla gürcü, erməni aşığı və şairi Azərbaycan türkcəsində

yazıb-yaratmışlar. Həmin xalqların yazılı və şifahi ədəbiyyatında Azərbaycan dili elementləri və Azərbaycan ədəbiyyatı motivləri başlıca rol oynamışdır.

Yeri gəlmişkən qeyd edək ki. ədəbi əlaqələr və dillərin qarşılıqlı təsiri problemlərinin kifayət qədər araşdırılmasına, fundamental tədqiqat işlərinin aparılmasına baxmayaraq, çox təəssüf ki, bu vaxta qədər regionda etnik proseslər və milli münasibətlər məsələsinin tarixi aspektdə öyrənilməsinə xüsusi diqqət yetirilməmişdir. Halbuki, bunsuz ədəbi-mədəni əlaqələrin tarixi kökləri, inkişaf mərhələləri və s. barədə dürüst mülahizələr söyləmək mümkün deyildir. Odur ki, bu baxımdan Borçalıda etnik problem və milli münasibətlər məsələsinin tədqiqata cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, Borçalının tarixi və taleyi həm də regionda məskunlaşan ayrı-ayrı xalqların etnik və milli münasibətlərindən xeyli dərəcədə asılı olmuşdur. Məsələn, Borçalıda məskunlaşdırılan ermənilər regiona gətirildikləri çağlardan başlayaraq, hamilərinin siyasətinə rəğmən, həmişə milli məsələlərdə dağıdıcı rol oynamış, etnik münaqişələrə rəvac vermiş, birgə yaşayış normalarını pozmuş, qonşuluq münasibətlərinə xəyanət etmiş, son nəticədə isə, ümumiyyətlə, Borçalının parçalanmasına nail olmuşlar. Sonrakı dövrlərdə də məhz erməni xəyanətkarlığı nəticəsində Azərbaycan və Gürcüstan öz ərazi bütovlüklərini, daha sonra isə müstəqilliklərini itirmişlər.

Borçalı tarixin ən sərt və amansız sınaqlarına məruz qalmışdır. 1736-cı ildə Nadir şah Borçalını öz şəxsi iddialarına qurban vermiş, onun şahlıq taxtına çıxmasına narazılıq edən Gəncə feodallarına acığı tutaraq həmin ərazini Kartli-Kaxetiya çarlığına bağışlamışdır (4, 250).

On doqquzuncu yüzilliyin əvvələrində Borçalıya «tatar distansiyası» statusu verilmişdir (2, 12).

1849-cu ildə rus çarının fərmanı ilə Qafqaz yeni inzibati idarəetmə bölgəsinə bölünəndə Borçalı Gürcüstan general-qubernatorluğuna tabe edilmişdir. Sonralar quberniyalar yaradılarkən ərazi Tiflis quberniyasının tərkibinə qatılmışdır.

1877-ci ildə Trialeti və Lori pristavlarının ərazilərinin birləşdirilməsi hesabına Şüləver inzibati bölümü, nəhayət 1880-ci ilin mayında Tiflis quberniyasının tərkibində Borçalı qəzası yaradılmışdır (4, 25). Qəza Lori, Borçalı, Trialeti və Yekaterinenfeld nahiyələrindən ibarət olmuş və 1929-cu ildə ləğv edilmişdir (2, 30).

Dəhşətli burasıdır ki, Borçalı Kartli-Kaxetiya çarlığına bağışlandığı vaxtdan tutmuş onun bir qəza kimi ləğv edilməsinə qədərki iki yüz illik dövrdə bu ərazinin sərhədləri müxtəlif ərazi-inzibati qurumlar yaradılarkən dəfələrlə dəyişikliklərə, doğranmalara, parçalanmalara, əhalisi isə ölçüyəgəlməz dərəcədə mənəvi təzyiqlərə məruz qalmışdır. Təkcə bir faktı söyləməyə dəyər ki, Borçalı qəzası ləğv edilərkən cəmi üç rayon - Borçalı (Marneuli), Lüksemburq (Bolnisi) və Başkeçid (Dmanisi) rayonları yaradılmışdır. Tarixi Borçalı ərazisinin bir hissəsi bu vaxta qədər Ermənistan tərəfindən ələ keçirilmiş, başqa hissələri isə Gürcüstanın digər rayonları arasında «əridilərək» yox edilmişdir... Təəssüf ki, bu gün Borçalı adı altında yalnız adı çəkilən həmin üç

rayon xatırlanır. Halbuki Ağbulaq (Tetriskaro), Zalqa rayonları, Qarayazı və Qaraçop mahalları, eləcə də Ermənistanın indiki Taşir, Baqrataşen, Noemberyan, Alaverdi rayonlarının əhatə etdiyi ərazilər məhz Borçalının tarixi torpaqlarıdır (3, 38).

Borçalının bu cür amansız sınaqlarla üzləşməsi onun müəyyən siyasətə qurban verilməsi ilə bağlı idi. Həmin mənfur siyasət isə regionda türk etnosunun izlərinin tədricən silinməsinə, qeyri-türk mühitinin yaradılmasma və bununla bağlı olaraq azərbaycanlıların hər vəchlə sıxışdırılaraq azlıqda qalmalarını təşkil etməyə xidmət göstərirdi.

Borçalıların öz yurdalarını ilk dəfə kütləvi şəkildə tərk etmələri on yeddinci yüzilliyin əvvələrinə düşür. Həmin dövrdə Şah Abbasın əmri ilə Borçalı əhalisinin bir hissəsi məhz sürgünə məruz qalmışdır. «... Şah Abbas 1604-1606-cı illər arasında, Osmanlılara bağlılığından şübhələndiyi Borçalı-Qazax elinin bir çox oymaqlarını Gəncə-Qarabağ və Şirvan ölkələrində yerləşdirdi və beləlikə "dönük" sayılan bir çox güclü və çoxsaylı oymaqları dağıtdı» (6, 116). Borçalı əhalisinin ilkin miqrasiya prosesindən xəbər verməklə yanaşı, həm də bəzi gürcü alimlərinin regiona azərbaycanlıların məhz Şah Abbas tərəfindən köçürüldüyü və buna görə də, gəlmə olduqları barədəki uydurmalarını alt-üst edir. İkinci miqrasiya prosesi təxminən iki yüz il sonra, Qafqazda İran, Türkiyə və Rusiyanın nüfuz dairəsi uğrunda apardıqları müharibələr dövrünə düşür. Belə ki, Borçalıdan olan Qarapapaq türkləri Türkmənçay müqaviləsindən[1] sonra 800 ailə ilə Təbriz vilayətinə köçmüş, Abbas Mirzəyə ildə 12 min tümən vergi və 4000 atlı əsgər vermək şərtilə Sulduzda məskunlaşmışlar. Akademik Ziya Bünyadov yazır: "... Borçalı qarapapaqları Tərkəvün, Saral, Apanlı, Canəhmədli, Çakərli və Ulaşlı adıyla altı oymaqdırlar. 1934-cü ildə «təxminən altı min ailədən ibarət olan qarapapaqlılar yüzdən çox kənddə yaşayırdılar» (6, 56).

Borçalılıların Türkiyə ərazisinə də köç etmələrinin tarixi səbəbləri var və bu, XIX əsrin əvvəllərinə düşür. Araşdırıcı Valeh Hacıyev yazır: "Tarixi mənbələr sübut edir ki, Qazax, Borçalı və Ağbaba tərəkəmələrinin Qarsa birinci köçü 1828-ci ilə, ikinci köçü isə 1921-ci ilə təsadüf edir. E.Aslanın yazdığına gorə, Gürcüstan tərəkəmələri Borçalıdakı Oruzman, Qarayazı, Kəpənəkçi, Qazax bölgəsindəki Soyuqbulaq, Tiflis civarındakı Darvaz, Bəzəkli, Yırğançay, Qəmərli, Ağalıq, Faxralı, Axılkəbyin Xosbiyə, Göyçə və Lebis köylərindən gəlmişlər...» (6, 121). Köçkünlərin hazırkı nəsillərinin bir qisminin Tokatın Zib qəzasındakı Süleymaniyyə, Fatih, Hatippinarı, Osmanpinarı, Çiçəkpinarı kəndlərində, Amasiyanın Suluova qəzasının Alabədir, Ayrançı, Qorudüzü və Alakadı kəndlərində yaşadıqları qeyd olunur (6, 110). Rəsmi mənbələrdə isə hələ 1910-cu ildə Qars vilayətinin 99 kəndində 39 min Borçalı əsilli əhalinin yaşadığı və habelə 1922-1923-cü illərdə Ermənistan və Gürcüstandan olan 45 min adamın yenə Qarsda yerləşdirildiyi göstərilir (5,

[1] 1828-ci il fevral

46). Türk tarixçiləri Borçalı qarapapaqlarının Türkiyə tarixində müstəsna xidmətlər göstərdikləri, xüsusən də rus-türk müharibələri dövründə şücaətlə vuruşduqları barədə dönə-dönə yazmışlar. Bu baxımdan F.Kırzıoğlunun «Qars tarixi» monoqrafıyası əsəri, eləcə də Türkiyəyə köç etmiş borçalılar barədə Əhməd Muxtar paşanın, Mehmet Akif bəyin, Əhməd Cəfəroğlunun qələmə aldıqları əvəzsiz mənbələrdir.

Göründüyü kimi, borçalıların öz doğma yurdlarını tərk etməyə başladıqları ikinci dövr regiona Rusiya tərəfindən özgədilli xalqların, o cümlədən ermənilərin köçürüldükləri vaxta düşür. Həmin dövrdən etibarən Borçalı, eləcə də Gürcüstanın bir sıra digər bölgələri erməniləşdirmə siyasətinə məruz qalır. Lakin imperiyanın bütün cəhdlərinə baxmayaraq, Borçalıda həmişə Azərbaycan mühiti bərqərar olmuş, bu mühit özünün bütün mütərəqqi cəhətləri ilə bölgədəki xalqların həyatına da öz təsirini göstərmişdir. Həmin təsir bu gün də öz güc və qüdrətini saxlamaqdadır.

Əvvəldə qeyd etdiyimiz kimi, bu mühiti parçalamaq və sarsıtmaq məqsədilə zaman-zaman çoxçeşidli təsir vasitələri həyata keçirilmişdir. Borçalıların doğma yurdlarından müxtəlif yollarla sıxışdırılıb çıxarılmaları ilə yanaşı regionda onların sayının süni surətdə azaldılması, yaxud onlara «qonaq», «gəlmə» damğalarının vurulmasına da bu barədə bəzi rəsmi nəzər salaq. 1832-ci ilin Kameral siyahıyaalınmasına görə, Borçalıda 145 kənd, 4092 ev olmuş və burada 3634 erməni, 767 yunan, 669 gürcü, 213 alman və 8479 nəfər azərbaycanlı kişi qeydə alınmışdır. Nəzərə almaq lazımdır ki, adı çəkilən xalqlar, gürcülər istisna olmaqla, Rusiya çarlarının göstərişinə müvafıq olaraq Türkiyədən, İrandan və Virtemberq krallığından on doqquzuncu əsrin iyirminci illərində köçürülmüşlər.

Borçalıda azərbaycanlıların sayca başqa xalqlara nisbətən çoxluğunu gürcü yazıçısı və ictimai xadimi İ.Çavçavadze də təsdiqləyir. O, «İveriya» qəzetinin 1890-cı il 16-17 noyabr tarixli 244 və 245-ci saylarında dərc etdirdiyi «Borçalos mazra» («Borçalı qəzası») məqaləsində qəzanın ümumi əhalisinin üçdə iki hissəsini azərbaycanlıların təşkil etdiklərini yazır (4, 1 14).

İ.Çavçavadzenin həmin qeydlərinin qələmə alındığı dövrlərdə - 1886-cı ildə Borçalı əhalisinin etnoqrafık tərkibi barədə dəqiq rəqəmlər vardı. Qəzanın Borçalı nahiyəsindəki 12385 nəfərdən 12384 nəfəri, Yekaterinenfelddə 13936 nəfərdən 10028 nəfəri, Trialetidə 13469 nəfərdən 8974 nəfəri,Loridə. 3173 nəfərdən 1483 nəfəri, Qarayazıda 5549 nəfərdən 5249 nəfəri, Qaraçöpdə 1955 nəfərin hamısı Azərbaycan türkü idi (1 , 120). Gürcu, erməni və başqa xalqlar müqayisəolunmaz dərəcədə azlıq təşkil edirdilər. Məsələn, həmin dövrdə Lori və Yekaterinenfeldi çıxmaq şərtilə qəzanın Borçalı və Trialeti nahiyələrində, eləcə də Qarayazı və Qaraçöpdə gürcülər və ermənilər, demək olar ki, yox idilər, yaxud son dərəcədə azlıq təşkil edirdilər. Lori və Yekaterinenfelddə gürcülərin sayı müvafiq olaraq 2226 və 543; ermənilərin sayı 1436 və 7 idi ( 5, 205).

İyirminci yüzillik ərzində də regionda azərbaycanlılar sayca həmişə üstünlük təşkil etmişlər. 1926-cı ildə Borçalının ümumi əhalisinin (86537

nəfər) 50979 nəfəri azərbaycanlı, 14969 nəfəri erməni və 7949 nəfəri gürcü olmuşdur (6, 117). Müxtəlif dövrlərdə Borçalının azərbaycanlılar sıx yaşadıqları ərazilərə Gurcüstanın ayrı-ayrı rayonlarından əhali köçürülmüş və bununla da Borçalının milli tərkibinin dəyişdirilməsi cəhdləri göstərilmişdir. Məsələn, səksəninci illərin ikinci yarısından etibarən Borçalı regionuna svanların köçürülməsi burada əhalinin milli tərkibcə nisbətində müəyyən dəyişikliklər etmək məqsədi bu qəbildən atılan addımlardan olmuşdur.

Hazırda Gürcüstan Respublikasında yaşayan azərbaycanlı əhalinin sayı barədə mətbuatda və digər kütləvi informasiya vasitələrində müxtəlif rəqəmlər göstərilir. Gürcüstan Dövlət Statistika Komitəsinin məlumatına görə, əhalinin 1979-cu il siyahıyaalınması zamanı bu respublikada azərbaycanlıların sayı 255678 nəfər, 1989-cu il siyahıyaalınmasının nəticələrinə görə isə 307556 nəfər (respublikanın ümumi əhalisinin 5,7 faizi) olmuşdur ( 6, 130).

## ƏDƏBİYYAT


1. Gəncə (tarixi oçerk). Bakı: 1994, s.38
2. Borçalı distansiyası. Bax: «Qafqaz uğrunda Rusiya hökmranlığının xülasəsi», Sankt-Peterburq, 1836-cı il, 1-2 hissələr; "Sabah" qəz., 1992, 29 dekabr, 1993, 15 yanvar, J\ol4(15)
3. Ş.Məmmədli. Paralanmış Borçalı və ya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi. Bakı: 1991, s.10;
4. Bax: İ.Çavçavadze. «Borçalı qəzası. «İveriya» qəz., 1890-cı il, 16-17 noyabr, M-244-245; «Sovet Gürcüstanı» qəz. 1987, 28 noyabr; M.Sarvanlı-Sadıqov. «Borçalı tarixi və coğrafı xəritələrdə», «Yurddaş» qəz., 19 may 1993, 917(18);
5. Z.Bünyadov. «Qarapapaqlar» // "Borçalı" jurnalı, M., 1993, s.17.
6. Azərbaycan Mərkəzi Dövlət Ən Yeni Tarix Arxivi, fond 970, siyahı 1, vərəq 5-6.
7. М.Аббасова. История Борчалы. Баку: Sabah, 2006, 456 с.


## ДЕМОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО НАСЕЛЕНИЯ В БОРЧАЛЫ


**Л.И.НАСИБЛИ**


## РЕЗЮМЕ


70-80% населения в Борчалы составляют азербайджанцы. Они здесь живут более двух тысяч лет. Тюрки-гарапапаги являются самым древним населением Борчалы. Исторически Борчалы был колыбелью тюркской культуры и тюркской нравственности. Сюда с девятнадцатого века были переселены в массовом порядке армяне, немцы, греки и молокане. Для проживающего здесь населения азербайджанский язык играл роль основного средства общения.



**Ключевые слова:** Борчалы, политика, культура, генерал-губернатор, перепись

## DEMOGRAPHIC SETTING OF THE AZERBAIJANI POPULATION IN BORCHALI

**L. I.NASIBLI**

**SUMMARY**

70-80% inhabitans of Borchali are Azerbaijanis. They have lived here more than 2 thousand years. Borchali has historically been the cradle of Turkish culture and morality. Armenias, Germans, Greeks, Molokans have been resettled here since the XIX century. The Azerbaijani language has been of key importance for the population of Borchali.

**Key words:** Borchalı, policy, culture, general governor